*Qəbirləri dağıdan da, qəbir daşlarının üzünü silərək satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir, məscidlərimizi sökən də ermənidir, evlərimizi kərpic-kərpic söküb öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir. Biz azad edilmiş torpaqlara xarici qonaqları, jurnalistləri, siyasətçiləri, ictimai xadimləri müntəzəm olaraq gətiririk ki, görsünlər və bilsinlər, biz təkcə öz ərazimizi işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



# "Biz bölgəni erməni faşizmindən azad etmişik"

**Prezident İlham Əliyev avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında Vətən müharibəsindən əvvəl dəfələrlə nəyin bahasına olursa-olsun öz torpağımızın qaytarılacağını, doğma Qarabağın işğalçıdan azad olunacağını, ərazi bütövlüyümüzün bərpa ediləcəyini və şəhidlərimizin qisasının alınacağını dediyini xatırladaraq, bu sözlərin ötən il Azərbaycanın Ermənistana qarşı apardığı savaşda öz təsdiqini tapdığını, müzəffər xalq kimi dünya tarixinə öz adını yazdırdığını diqqətə çatdırıb.**

Dövlətimizin başçısı daha sonra Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə yaşatmaq üçün böyük işlər görüldüyünü və bundan sonra da bu istiqamətdə mühüm layihələr reallaşdırılacağını vurğulayıb. Eyni zamanda, bununla paralel olaraq, Vətən müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün bizim daha fəal olmağımızın, gənclərimizin tərbiyə işində də bu mövzunun mütləq ön planda saxlanılmasının zəruriliyini xatırladıb. "Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir", – deyə bildirib.

Azərbaycan Prezidenti çıxışında bu gün azad edilmiş torpaqlarda bərpa-quruculuq işlərinin sürətlə, həmçinin öz vəsaitimiz hesabına icra olunduğunu da deyib: "Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il – 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq...".

Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsində Azərbaycan hərbçilərinin həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərdiklərini, sözün əsl mənasında, ölümə getdiklərini vurğulayaraq, şəhidlərimizin əziz xatirəsinin hər birimiz üçün müqəddəs olduğunu qeyd edib. Ölkə rəhbəri deyib: "Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında da düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir.

Ancaq, eyni zamanda, onu da bildirmək istəyirəm ki, şəhidlərin sayı daha çox ola bilərdi. Əgər biz əməliyyatları planlaşdıranda bu amili nəzərə almasaydıq. Ona görə Ermənistan ordusu ilə müqayisədə bizdə itkilər kifayət qədər azdır...".

Azərbaycan Ordusunun peşəkarlıq, qəhrəmanlıq nümunəsi sayəsində, cəsarət, hünər, əzm hesabına 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin texnikası tam məhv edildi, silahlı qüvvələrinə ciddi zərbə vuruldu. Birgə bəyanat imzalanan ərəfədə isə artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirən, başıpozuq dəstələrə çevrildi. Beləliklə, ermənilərin "böyük Ermənistan" və "Dağlıq Qarabağ respublikası" xülyalarına birdəfəlik son qoyuldu. Bir sözlə, 30 il davam edən danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi məsələsi isə birdəfəlik aradan qaldırıldı.

Prezident İlham Əliyev çıxışında Azərbaycanın Ermənistan üzərindəki bu parlaq qələbəsinə əsaslanaraq dedi: "İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam qələbə olmamışdır. Biz 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad etdik. İşğalçıları məcbur etdik ki, onlar kapitulyasiya aktını imzalayaraq digər rayonlardan öz xoşları ilə çıxsınlar. Halbuki müharibənin ilk günlərindən mən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix verməlidir nə vaxt bizim torpaqlarımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Noyabrın 9-da Ermənistan artıq kapitulyasiya aktını imzalamağa hazır olmuşdur. Ağdam, Kəlbəcər, Laçın rayonlarının bizə qaytarılması tarixi müəyyən olunmuşdur. Noyabrın 10-na keçən gecə isə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə dayandı...".

Dövlətimizin başçısı çıxışında mühüm bir məqama da toxundu. Bildirdi ki, müharibənin Azərbaycan tərəfindən dayandırılması tamamilə əsaslı bir addım idi. Çünki döyüş davam etsəydi, birincisi, biz daha çox itkilər verəcəkdik, eyni zamanda, Kəlbəcər və Laçın rayonlarının azad edilməsində müəyyən çətinliklər qarşıya çıxa bilərdi. Bu, o bölgənin təbii iqlimi, dağlıq olması, qarşıdan qış fəslinin gəlməsi ilə bağlı idi. Eyni zamanda, dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan savaşı müharibə qanunları ilə aparırdı.



İşğalçıdan fərqli olaraq ordumuz hərbi cinayət törətmirdi, etnik təmizləmə siyasəti aparmırdı. Bu isə bir daha xalqımızın böyüklüyünü, aparılan siyasətin müdrikliyini göstərirdi: "Ona görə biz hər şeyi vaxtında etdik, hər şeyi vaxtında. Torpaqlarımızı vaxtında azad etdik, müharibəni vaxtında dayandırdıq və tarixi Zəfərə çatdıq. Bir neçə gün bundan əvvəl dediyim kimi, ermənilərin bütün miflərini darmadağın etdik...".

Ermənilər isə 30 il ərzində işğal etdikləri əraziləri xarabalığa çevirdilər, daşı daş üstə qoymadılar. Məscidləri, məzarlıqları dağıtdılar. Müqəddəs ocaqlarda inək, donuz saxladılar. Bununla bütün müsəlman aləmini təhqir etdilər. Yaşıllıqları doğradılar. Təbii sərvətlərimizi talan etdilər. Ermənilərin ərazilərimizdəki vandal əməlləri bununla kifayətlənmədi. Onlar işğal dövründə yaşayış məntəqələrimizin adlarını erməniləşdirdilər, bu yerlərdə qanunsuz məskunlaşma apardılar. Xaricdə yaşayan soydaşları üçün qəsəbələr saldılar. Halbuki bu, Cenevrə konvensiyalarına görə hərbi cinayət sayılır. Bütün bu barbarlıqlara, vəhşiliklərə baxmayaraq, bir beynəlxalq təşkilat belə Azərbaycana qarşı törədilən bu cinayətlərdən narahat olmadı, Ermənistana təzyiq göstərmədi. Dövlətimizin başçısı bununla bağlı çıxışında deyib: "Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerləyeksan ediblər. Amma qalan yerlərdə – Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və Şuşada qanunsuz məskunlaşma gedirdi. Düzdür, az gedirdi, çünki onların insan resursları yox idi, amma gedirdi. Bu, hərbi cinayətdir. Bu hərbi cinayətə görə təkcə Ermənistan yox, o cinayətlərə göz yuman da məsuliyyət daşıyır...".

Prezident İlham Əliyev nitqində düşmən ölkənin bu gün üzləşdiyi vəziyyətə də toxundu. Bildirdi ki, hazırda Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə, öz sərhədlərini özü qoruya, öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz. Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir.

*(ardı 4-cü səhifədə)*

# "Biz bölgəni erməni faşizmindən azad etmişik"



*(əvvəli 1-ci səhifədə)*

Dövlətimizin başçısı çıxışında Qarabağın tarixi ilə bağlı bir məqama da toxundu. Bildirdi ki, xalqımız uzun illərdir ədalətsizliklərlə üzləşir. Bu, ötən əsrin 20-ci illərində xalqımıza vurulan iki böyük zərbə ilə əlaqədardır: Birincisi, 1920-ci ildə sovet hakimiyyəti ölkəmizin tarixi ərazisi olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirdi. Bununla da, bölgədə azərbaycanlı əhali deportasiyaya məruz qaldı. İkinci isə 1923-cü ildə Azərbaycan ərazisində süni bir qurum – Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Halbuki buna heç bir əsas – nə tarixi, nə coğrafi, nə də iqtisadi əsası var idi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi "sadəcə olaraq, bizim canımıza bu süni bir cisim yeridildi ki, bir canlı bomba kimi orada dursun və vaxtında partlasın. Belə də oldu. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Onun da mərkəzi şəhəri bizim Xankəndi qəsəbəmiz olmuşdu. Ona da cəllad Stepan Şaumyanın adını verdilər, Stepanakert adlandırdılar...".

Beləliklə, bütün bu hadisələr, ədalətsizliklər xalqımıza dəhşətli ağrı-acılar yaşatdı: 1940-1950-ci illərdə qədim Azərbaycan torpağı olan Ermənistan ərazisindən soydaşlarımız deportasiya edildi. Ötən əsrin 80-ci illərinin sonunda isə erməni separatizminin baş qaldırması və buna sovet hakimiyyəti tərəfindən heç bir reaksiya verilməməsi nəticəsində Qarabağın dağlıq hissəsi və ətraf rayonlarımız Ermənistan tərəfindən işğal olundu.

Düşmən bu mənfur əməli həyata keçirmək üçün uzun illər idi ki, hazırlaşırdı. Sadəcə, əlverişli vaxt və imkan əldə edib separatizmi gerçəkləşdirməyi gözləyirdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dönəmində işğalçıya bu fürsət verilmədi. Dahi şəxsiyyətin nüfuzu, qətiyyəti və gücü qarşısında mənfur düşmən səsini çıxarmağa belə qorxdu... Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "Ermənilər Heydər Əliyevin varlığının, sovet rəhbərliyində böyük nüfuza malik olmasının onların planlarını alt-üst etdiyini yaxşı başa düşürdülər. Ona görə Ermənistandan, digər yerlərdən, əfsuslar olsun ki, milli satqınlar – Azərbaycandan kütləvi surətdə Moskvaya anonim məktublar göndərirdilər və şər-böhtan kampaniyası aparırdılar. O məqsədlə ki, Heydər Əliyev amili aradan qaldırılsın. Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş erməni separatçıları məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin".

Prezident qeyd etdiyi kimi, xalqımızın bəlaları o gündən başladı. Dağlıq Qarabağda qanunsuz xüsusi idarəetmə komitəsi yaradıldı, qatı ermənipərəst bir şəxs o quruma rəhbər təyin edildi və faktiki olaraq Dağlıq Qarabağın Azərbaycandan qopardılması üçün zəmin yaradıldı. "O vaxtkı Azərbaycan rəhbərliyi əfsuslar olsun ki, sadəcə olaraq bütün bu təhlükəli hadisələrə tamaşa edirdi. Səs qaldıra bilmədi, cəsarət göstərmədi, sadəcə olaraq başını aşağı salaraq Moskvadan nə deyirdilər onu da edirdi. Çünki o vaxt Azərbaycana rəhbərlik edən adamlarda bir qram Azərbaycan qanı yox idi. Azərbaycanlı sayılsalar da, bir qram milli ruh yox idi, kosmopolit insanlar idi, heç Azərbaycan dilində düz-əməlli danışa bilmirdilər. Dağlıq Qarabağın tarixi budur və ondan sonra Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlar başlamışdır, torpaqlarımız işğal altına düşmüşdür", – deyə Prezident İlham Əliyev əlavə edib.

Ölkə rəhbəri avqustun 26-da etdiyi məlum çıxışının sonunda bildirdiyi kimi, Azərbaycan bu gün Qarabağ bölgəsinə tam sahiblik edir, bu torpaqlarda möhkəmlənir. Yol infrastrukturu bərpa olunur. Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz-Cəbrayıl–Zəngilan–Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel olaraq tikintisi aparılır. Avtomobil yolunun 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur. Qarabağda Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin icrası diqqətdə saxlanılır. Həm Qarabağda, həm də Şərqi Zəngəzurda yeni elektrik xətləri, həmçinin ötürücü xətlər çəkilir, transformatorlar, yarımstansiyalar qurulur, elektrik stansiyaları istifadəyə verilir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 29 avqust.- S.1;4.